*(başlanğıcı ötən sayımızda)*

***Onlardan birincisinin adı rusca "podvijnoy element"dir ("hərəkətə gətirən vasitə"). – Bu nə deməkdir? O deməkdir ki, bu xüsusiyyət insana eşitdiyini, gördüyünü qavramağa imkan verir, qalan baş verənlər də həmin o vasitədən hərəkətə gəlir. Bu olmazsa, nə qədər oxusan da, faydası yoxdur. Vaxtında etməsən, vaxtında nəticəyə gəlməsən, vaxtında deməsən, gecikərək bütün həyatın boyu peşmançılıq çəkəcəksən və deyəcəksən: "Vay, vay... bilsəydim, belə etməzdim, fürsəti əldən vermişəm..."***

***Digər xüsusiyyət isə rusca "sila prityaqatelnaya odnorodnooqo" ("eynicinsli maddəni çəkici vasitəsi") deyilir. Bu, təzə öyrəndiyin işi görüb bildin, xoşuna gəldi və dedin ki, bu, o biri işlərə bənzəyir. Yaxşı, hər şeyin oxşarı varmı? Yoxsa, bu, ancaq ayrı-ayrı elementlərdədir? Hər nədirsə, onun o tərəf-bu tərəfinə baxıb, yoxlayıb, sınaqdan keçirib, xüsusiyyətlərini yoxlamasan, özündə rahatlıq tapmayacaqsan.***

Üçüncüsü isə, rusca "vpeçatlitelnost serdstsa" ("həssas ürək") deməkdir, bu zaman ürəyi dörd yaman şeydən – özündənrazılıq, yüngülağıl, tamahkarlıq və namussuzluq kimi pis niyyətlərdən qorumalısan; yoxsa, kənardan əxz edilmiş belə xüsusiyyətlər ürəyin rövşənini alar. Əgər bu dörd xüsusiyyət ilə ürəyi kirlətsən, ürəyin aynası sınar, yamaqlı görsənər. Sonra həmin sınmış ürəyi bir yerə yığa bilməzsən.

Səndə olmayan hər şeyi ki, zəhmətlə əldə edirsən, o sənin dövlətindir. Dövlət kimi yaratdığın təsərrüfatın da nə qədər çatışmazlığı olur, bunların hesabını bilmədən, o dövləti də əlində saxlaya bilməzsən. Həmçinin qazandığın ruhi var-dövlətinin özünü də, qorumaq çox çətindir. Sənin ruhuna dinclik verən qazandıqlarından ən əfzəli isə canındakı ağıl və elmdir. Onun da cürbəcür xəstəlikləri və fəlakətləri, toxunan zərərləri vardır. Bunları bilməsən, görməsən, ondan da uzaqlaşarsan. – Onu bil ki, insana məxsus olan və olmayan hər şeyin bir ölçüsü vardır. Həmin ölçünü və çərçivəni keçirsənsə, işlərin alınmayacaq. Ölçünü bilməyin özü böyük bir istedaddır. Düşünmək, xəyala getmək, fikirləşmək gözəl bir işdir; lakin bütün həyatın boyu xəyallarda yaşamağın da bir faydası yoxdur. İçmək, yemək, gülmək, könül əyləndimək, qucaqlaşmaq, öpüşmək, qazanmaq, mənsəb sahibi olmaq, ailə qurmaq, hiyləgərlik etmək, zövq almaq, bəhrələnmək – bunların içərisində aldanmamaq üçün də öz ölçünü bilməlisən...

"Nəyi ki, çox sevirsən, bir gün onun atəşinə yanarsan" deyilən bir ata sözümüz var. Danışdığım üçlü qüvvənin içərisindən ikisi "sila prityaqatelnaya odnorodnoqo" və "podvijnoy element" – bu iki hissin içərisində də müxtəlif fayda və zərərlər vardır. Mənsəbə aludəçilik, özündənrazılıq, hirs və hikkə, yalan – insanı məhv edən nə varsa, öz əvvəlini bu sınaqlardan götürür. Bu qüvvənin sahibləri onu idarə etməyi bacarmalı və yaxşı işlər görmək üçün təkmiləşdirməyi bacarmalıdır. İnsanın ağlı yaxşını pisdən, pisi yaxşıdan seçməyi bacarır, lakin elə etməlisən, pisliklər sənin ağlına üstün gəlməsin. Zərərdən qaçan, faydalı iş görən qüvvənin adı ağıldır. Lakin bir ağılın gücü ilə də bunları düzüb-qoşmaq olmur. Buna görə həm ağıl, həm də, qeyrət – bu iki əsas hiss bir-birinə yoldaş olmalıdır. Bu iki xüsusiyyət kimdə varsa, o iti qaçan köhlən at kimidir – hər şey onun olacaq. Yox, əgər bu xüsusiyyətlər inkişaf etməyibsə, başqa da heç nə bacarmaırsansa, o zaman sənin ürəyinin gücü səni çapağan at kimi daşlara, qayalara çırpacaq, sulara və dərələrə qərq edəcək. Sənin gücün, qüvvətin qalmayacaq. Yolları itirəcəksən, özünə yol tapmayacaqsan, Tanrı bilir haralara düşəcəksən. Səni yolda görən adamlar: "ağılsızdır," – deyib, əl sallayaraq ötəcək, sən də yerdə uzanıb, canın bədəndən çıxana kimi göy üzünə baxa-baxa yerdə qalacaqsan...

**1898**

***Ulu Tanrının tək varlığı və qüdrətinin sübutu həm də odur ki, min illərdir, müxtəlif dinlərə itaət edən, ən müxtəlif dillərdə danışan insanlar onun varlığı haqqında danışır; hər biri belə hesab edir ki, sevgi və ədalət Yaradana məxsusdur. Biz yaradan deyilik, biz ölümlüyük, dünyanı maddiyyata görə dərk edənlərdənik. Biz məhəbbətin və ədalətin xidmətçiləriyik. Biz yaradan deyilik, yaradanın kölgəsində gəzib-dolanan günahkar bəndələrik. Onun məhəbbətinə və ədalətinə inanırıq, ona itaət edirik, lakin bir başqa bəndəni ona ibadət etməyə inandıra bilməyəcək qədər gücsüzük. İnandım, güvəndim demək, inandırdım, güvəndirdim demək deyil***

# Qazaxıstanın Qütb ulduzu - Abay



## Qırx dördüncü söz

***İnsanın ən yararsızı heç nə istəməyənidir. Tələb edənlərsə bir neçə türlü olur. Tələblərin özü də türlü-türlüdür. İstedadlı, hər hansı bir iş görməyə həvəs göstərən adamlar da öz bacarıqları və bilikləri ilə bir-birindən fərqlənir. İstedadlı və ya yaramaz olmasından asılı olmayaraq, onların hər biri təriflənməyi, "bərəkallah" eşitməyi xoşlayar. Onların hər biri "bərəkallah" sözünə layiq oldu-olmadı, onu qazanmaq istəyəcək. İnsanoğlu özü hansı yolda, hansı meydanda gəzsə, orada kiminləsə söhbət edəcək, özünə sirdaş tapacaq.***

Ona görə də "bərəkallah"ı özgələrdən deyil, öz yanındakılardan gözləyər. Belə düşünər ki, kim mənə "bərəkallah" deyəcəksə, o dostumdur. Bu istək də ondan irəli gəlir ki, insan oğlu özü hörmət istəyir, sayılmağının fərqindədir. İnsanın biri şan-şöhrət, birisi də mal-dövlət dalınca düşər. "Var-dövlət tapan adam yazıq olmaz" deyib, "Var-dövlətin üzü nurlu olar" atalar sözündə olan kimi, mal-mülk sahibinin itinə də hörmət bəslərlər; varlı adamı heç kim qınamaz, yəni mal-dövlət insana hörmət, şöhrət qazandırar. Qazaxların belə layiqsiz əməllərini fikirləşirsən ki, bu da onların ən murdar sifət və xasiyyətlərindən biridir.

Qazaxın gözünün doymadığı halına şahid olunca, adam iyrənir. Ona görə ki, birisi özünü qəhrəman, birisi bilikli, başqa birisi bəy hesab edir, birisi də, molla kimi ad çıxarmaq üçün min bir oyundan çıxır. Hər birinin də məqsədi qazanmaqdır. Və bu, nəyəsə nail olmaq istəyən insanların da hamısı oxumaq istəyindədir – lakin kitab oxumaq deyil, bir-birinin üzündəki ifadəni oxumaq üçün min bir dona girərlər... Bir-birinin üzünə baxınca, nəbzini tutar və tədbirini müəyyən edərlər. Əgər kitab oxumaq istəkləri olsa idi, əvvəla, könüllərini təzələməli idilər, ondan sonra oxumağa başlamaq olardı. Əgər adamın sifətinə baxıb öyrənmək istəyirsənsə, könlünü təmizləməyin heç də anlamı yoxdur. Çünki kimsə sənin qəlbinin içindəkindən xəbərdar deyildir. Onların üzünə baxıb hansı istəklərdə olduğunu hər kəs təyin edə bilməz.

**1898**

***Səndə olmayan hər şeyi ki, zəhmətlə əldə edirsən, o sənin dövlətindir. Dövlət kimi yaratdığın təsərrüfatın da nə qədər çatışmazlığı olur, bunların hesabını bilmədən, o dövləti də əlində saxlaya bilməzsən. Həmçinin qazandığın ruhi var-dövlətinin özünü də, qorumaq çox çətindir. Sənin ruhuna dinclik verən qazandıqlarından ən əfzəli isə canındakı ağıl və elmdir. Onun da cürbəcür xəstəlikləri və fəlakətləri, toxunan zərərləri vardır. Bunları bilməsən, görməsən, ondan da uzaqlaşarsan. – Onu bil ki, insana məxsus olan və olmayan hər şeyin bir ölçüsü vardır. Həmin ölçünü və çərçivəni keçirsənsə, işlərin alınmayacaq. Ölçünü bilməyin özü böyük bir istedaddır. Düşünmək, xəyala getmək, fikirləşmək gözəl bir işdir; lakin bütün həyatın boyu xəyallarda yaşamağın da bir faydası yoxdur. İçmək, yemək, gülmək, könül əyləndimək, qucaqlaşmaq, öpüşmək, qazanmaq, mənsəb sahibi olmaq, ailə qurmaq, hiyləgərlik etmək, zövq almaq, bəhrələnmək – bunların içərisində aldanmamaq üçün də öz ölçünü bilməlisən...***

## Qırx beşinci söz

***Ulu Tanrının tək varlığı və qüdrətinin sübutu həm də odur ki, min illərdir, müxtəlif dinlərə itaət edən, ən müxtəlif dillərdə danışan insanlar onun varlığı haqqında danışır; hər biri belə hesab edir ki, sevgi və ədalət Yaradana məxsusdur. Biz yaradan deyilik, biz ölümlüyük, dünyanı maddiyyata görə dərk edənlərdənik. Biz məhəbbətin və ədalətin xidmətçiləriyik. Biz yaradan deyilik, yaradanın kölgəsində gəzib-dolanan günahkar bəndələrik. Onun məhəbbətinə və ədalətinə inanırıq, ona itaət edirik, lakin bir başqa bəndəni ona ibadət etməyə inandıra bilməyəcək qədər gücsüzük. İnandım, güvəndim demək, inandırdım, güvəndirdim demək deyil.***

***İnsanlığın əzəli məhəbbət və ədalətdir. Bunlar olmayan yer yoxdur. Hər yerdə vardır. "Ol!" demək Tanrının işidir. Ayğırın bir ata yaxınlaşması da sevginin əlamətidir. Bu ədalət, məhəbbət kimdə çox olarsa, o kəs alimdir, olmayan isə cahil. Biz elm yarada bilmirik, biz ancaq görüb-götürürük, dünyanın yaranışını qəbul edir və onun harmoniyasını ağlımızla hiss edirik.***

**1898**

**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
**Aida EYVAZLI GÖYTÜRK**